Ağır Atletika Akademiyasında təşkil olunan çempionatda “Təhsil” Respublika İdman Mərkəzinin (RİM) yığma komandası da iştirak edib. Yığma komanda Təhsil Nazirliyinin tabeliyində olan idman məktəblərinin boks üzrə ən yaxşı yetirmələrindən formalaşdırılıb.

Çempionatda uğurla çıxış edən “Təhsil” RİM-in idmançıları 3 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar. Belə ki, 58 kq çəki dərəcəsində Ləman Əhmədova, 77 kq çəki dərəcəsində Əfqan Bayramov və 105 kq-dan ağır çəki dərəcəsində Azər Məmmədov I yeri tutublar. 105 kq çəki dərəcəsində Əli Əliyev fəxri kürsünün II, 85 kq çəki dərəcəsində Emin Qocayev və 94 kq çəki dərəcəsində Ceyhun Məhərrəmov III pilləsinə yüksəliblər.